# Azərbaycan Milli Aerokosmik Agentliyinin yaradılması haqqında

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Kosmik fəzanın öyrənilməsi sahəsində dövlət siyasətini həyata keçirmək, milli aerokosmik proqramlar hazırlayıb yerinə yetirmək, başqa dövlətlərlə birlikdə həyata keçirilən beynəlxalq kosmik layihələrə dair işləri əlaqələndirmək və idarə etmək, bu sahələrdə olan elm və istehsal potensialından respublikanın xalq təsərrüfatının və təhlükəsizliyinin xeyrinə səmərəli istifadə etmək məqsədi ilə **qərara alıram:**

**1.** Kosmik Tədqiqatlar Elm-İstehsal Birliyi bazasında Azərbaycan Milli Aerokosmik Agentliyi (AMAKA) yaradılsın.

2. Müəyyən edilsin ki, Azərbaycan Milli Aerokosmik Agentliyi öz fəaliyyətində Azərbaycan Respublikasının Prezidentinə tabedir.

3. Azərbaycan Milli Aerokosmik Agentliyinin əsas vəzifələri aşağıdakılardır:

—kosmik fəzanın öyrənilməsi sahəsində milli elmi-texniki siyasətin formalaşdırılması, respublikada bu sahədə aparılan fundamental və tətbiqi tədqiqatların təşkili, idarə edilməsi və əlaqələndirilməsi, aviasiya texnikasının və kosmik texnikanın yaradılması;

—kosmik fəzadan xalq təsərrüfatının, dövlətlərarası birgə aviasiya-kosmik proqramların, layihələrin və sazişlərin xeyrinə istifadə edilməsində beynəlxalq əməkdaşlığa dair konsepsiyaların hazırlanması və həyata keçirilməsi aviasiya-kosmik xidmətlərin dünya bazarına çıxarılması;

—aerokosmik elm və texnikanın müvafiq sahələrində yüksək ixtisaslı mütəxəssislər hazırlanması və təkrar hazırlıq keçməsi.

4. Arif Şəfayət oğlu **Mehdiyev** Azərbaycan Milli Aerokosmik Agentliyinin baş direktoru təyin edilsin.

5. Azərbaycan Milli Aerokosmik Agentliyinin baş direktoru bir ay ərzində Agentlik haqqında əsasnamənin layihəsini və onun say tərkibinə dair təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

6. Azərbaycan Respublikasının Nazirlər Kabineti Agentliyin maliyyə və təsərrüfat təminatı məsələlərini həll etsin.

7. Bu Fərman dərc olunduğu andan qüvvəyə minsin.

**Azərbaycan Respublikasının Prezidenti**
**A. MÜTƏLLİBOV.**

Bakı şəhəri, 21 fevral 1992-ci il.
580.